# “Aqrar sektorun uğur düsturu: dövlətin dəstəyi, işlək qanunlar...”

### Müsahibimiz Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayevdir



***– Tahir müəllim, son vaxtlar Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda hərtərəfli islahatlar aparılır. Müsbət dəyişikliklər ölkəmizin ictimai-siyasi həyatına pozitiv əhval-ruhiyyə, dinamika gətirib. Bəs islahatlar Azərbaycan kəndinə nə verir?***

– Çox şey verir: inkişaf, tərəqqi, yeni infrastruktur, modern idarəçilik. Azərbaycan kəndi son 16 ildə, yeni regionların sosial-iqtisadi inkişafına dair ilk Dövlət Proqramının icrasına başlanıldığı 2004-cü ildən bu vaxta qədər çox inkişaf edib. Bu gün cənab Prezident aqrar sektorun inkişafının daha da sürətləndirilməsini vacib hesab edir. Məqsəd kənd təsərrüfatında mühüm keyfiyyət dəyişikliklərini həyata keçirməkdir. Hədəf ixracyönümlü məhsulların istehsalını artırmaq, əhalinin rifahını daha da yaxşılaşdırmaqdır.

Prezident İlham Əliyev modern düşüncəli, islahatçı liderdir. Lider olmaq irəlini, gələcəyi görmək, hədəfə doğru qətiyyətli olmağı bacarmaq deməkdir. Bunun üçün dövlətin, özəl sektorun, eləcə də ölkənin əmək resurslarını prioritet istiqamətlərdə səfərbər etmək lazım gəlir. Nəzərə alınmalıdır ki, islahatlar həyatın tələbidir. Müharibə şəraitində olan ölkəmizdə əhalinin ərzaq təhlükəsizliyinin etibarlı təmin olunması çox vacibdir.

Bütün bu və digər amillər aqrar sektorda islahatları zəruri edir. Görünən budur ki, son vaxtlar aqrar sahədə də müsbət dəyişikliklər baş verir. Düşünürəm ki, bu proses davamlı, ardıcıl şəkil alacaq və özünün real, pozitiv nəticələrini tezliklə göstərəcək.

Aqrar sahədə islahatların aparıcı qüvvəsi fermerlər, pay torpaq mülkiyyətçiləri, bir sözlə, əkin-biçin adamlarıdır. Bu şəxslər hiss edirlər ki, Azərbaycan dövləti onların özlərinə və ailələrinə torpağın “dilini tapıb” daha uğurlu nəticələr əldə etmələri üçün hər cür şərait yaradır. Dövlət başçısının tapşırığı ilə kənd təsərrüfatında çalışanlara güzəştli şərtlərlə gübrə, toxum, texnika və s. verilir.

2019-cu il bu istiqamətdə xüsusilə əlamətdar olmuşdur. Belə ki, ötən il ərzində fermerlərə 380 milyon manat subsidiya verilmişdir. Ölkədə elektron kənd təsərrüfatı sistemi yaradılmışdır. Tezliklə aqrar sığorta sistemi işə düşəcəkdir.

***– Adətən, kənd təsərrüfatı sahəsində çalışanların ən böyük çətinliyi iqlim sürprizləri ilə bağlı olur. Bu dəfə koronavirus pandemiyası gözlənilmədən peyda oldu? Bu bəla kənd təsərrüfatı işlərinin vaxtında və keyfiyyətlə görülməsinə mane olurmu?***

–Pandemiya dünya iqtisadiyyatına mənfi təsir göstərir. Azərbaycan da dünyanın bir parçasıdır, lakin bu təhlükəli infeksiyanın yaratdığı çətinliklərə baxmayaraq, hazırda Azərbaycanın bütün bölgələrində, tarla və alma, üzüm bağlarında, pambıq plantasiyalarında, tərəvəz sahələrində karantin qaydalarına ciddi əməl etməklə işlər uğurla davam etdirilir.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti cənab İlham Əliyev bu günlərdə Tərtər və Ağcabədiyə səfər edərək, burada bir çox yeni sosial və istehsal obyektlərinin açılış mərasimlərində iştirak edib. Bundan bir neçə gün əvvəl isə dövlətimizin başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Şamaxıya səfər ediblər.

Həmin səfərlər zamanı möhtərəm Prezidentimiz ölkəmizin inkişlafı, aqrar sektorda qarşıda duran mühüm vəzifələr barədə fikir və mülahizələrini bildirib, dəyərli tövsiyələr verib. Dövlətimizin başçısı yerlərdə əhalinin pandemiya şəraitində sağlamlığının qorunması ilə bağlı görülən işlərlə də tanış olub, bu istiqamətdə bölgələrə lazımi köməklik göstərilib.

Səmimiyyətimə inanın: bu gün dünyada cənab İlham Əliyev qədər xalqına, dövlətinə bütün varlığı ilə bağlı olan, bu yolda böyük fədakarlıqlar göstərən dövlət rəhbərlərinə az-az rast gəlinir. Azərbaycan xalqı bunu qədirbilənliklə dəyərləndirir, öz liderinə güvənir və sonsuz məhəbbət bəsləyir.

Həmin səfərlə bağlı bir məqam yaddaşıma həkk olunub. Möhtərəm Prezidentin Ağcabədi rayonundakı Hindarx qəsəbəsindəki taxıl sahəsində ayaq üstə çəkilmiş fotosuna, yəqin ki, diqqət etdiniz. O, bolluğu, bərəkəti, insanların süfrəsinə ruzi, bəzək olacaq məhsulu necə də məhəbbətlə, fərəhlə seyr edir. Çox təsirli səhnədir, deyilmi?!

Bəli, cənab Prezidentin Azərbaycanın hər bir şəhər və kəndində, ölkəmizin hər bir guşəsində gərgin və səmərəli fəaliyyətini təcəssüm etdirən parlaq quruculuq işlərinin silinməz izləri var. Xalqımız ölkəsinin intibahı, insanların rifahı, xoşbəxtliyi üçün yorulmadan əlindən gələni edən öz müdrik lideri ilə haqlı olaraq fəxr edir!



***– Siz bu yaxınlarda Milli Məclisin Aqrar siyasət komitəsinin rəhbəri seçilmisiniz. Deputatlar kənd təsərrüfatı sahəsində aparılan islahatlara kifayət qədər dəstək verə biləcəklərmi?***

– Əlbəttə, veriləcək! Bu bizim qarşımızda duran əsas vəzifələrdən biridir. Yaxşı yadımdadır ki, Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin birinci iclasında parlaq, dərin məzmunlu nitq söylədi. Dövlətimizin başçısı bildirdi ki, ölkənin sosial-iqtisadi inkişafı üçün yeni, mütərəqqi qanunların qəbulu və onların icrasına nəzarətin gücləndirilməsi vacibdir və bu, ölkə iqtisadiyyatının tərəqqisinə əhəmiyyətli fayda verə bilər.



Milli Məclisin rəhbərliyi, bütün komitələrin, o cümlədən Aqrar siyasət komitəsinin üzvləri bu sahədə öz üzərlərinə düşən bütün vəzifələri dərin məsuliyyət hissi ilə yerinə yetirməyə çalışırlar.

Milli Məclis tərəfindən bu vaxta kimi görülən işləri də lazımınca qiymətləndirmək lazımdır. Respublikada kənd təsərrüfatının hərtərəfli inkişafı üçün hüquqi, iqtisadi, mənəvi baza yaradılıb. Aqrar sahə ilə bağlı 300-ə yaxın məsələyə baxılıb, mühüm qanunlar qəbul olunub, bir çox qanunlara əlavə və dəyişikliklər edilmişdir. “Taxıl haqqında”, “Pambıqçılıq haqqında”, “Çayçılıq haqqında”, “Arıçılıq haqqında”, “Tütün və tütün məmulatları haqqında”, “Üzümçülük və şərabçılıq haqqında” və s. qanunlar qəbul olunmuşdur ki, bunlar işlərin hüquqi müstəvidə tənzimlənməsini təmin edir.

***– Aqrar sahədə idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi vacib amillərdən hesab olunur. Bir çox mütəxəssis hesab edir ki, bölgələrdə ayrı-ayrı pay torpaq mülkiyyətçilərinin iri fermer təsərrüfatlarında birləşməsinə zərurət yaranıb. Bu məsələyə necə baxırsınız?***

– Müşahidələr göstərir ki, aqrar sektorda inteqrasiya prosesləri müsbət nəticələr verir. O yerdə ki, xırda fermerlərin, kiçik pay torpaq mülkiyyətçilərinin birləşərək iri fermer təsərrüfatları yaratmaq imkanları mövcuddur, əlbəttə, bu işi görmək məqsədəuyğundur.

Azərbaycanda son illər çox sayda aqrar-sənaye parkları yaradılıb. Onların arasında artıq ciddi uğurlar əldə edən kollektivlər var. Bu təsərrüfatlarda əmək məhsuldarlığı daha yüksəkdir, məhsulun maya dəyəri daha ucuz başa gəlir. İnanıram ki, ölkəmizdə aqrar-sənaye parklarının, iri fermer təsərrüfatlarının sayı gələcəkdə daha da artacaq.

***– Yəqin ki, Milli Məclisin Aqrar siyasət komitəsi beynəlxalq təcrübədən də bəhrələnir. Qardaş Türkiyənin, eləcə də digər qabaqcıl ölkələrin aqrar sektordakı təcrübəsi bizim fermerlərin də karına gələ bilər, deyilmi?***

– Əlbəttə, müsbət təcrübədən hər zaman bəhrələnmək lazımdır. Qardaş Türkiyədə, İsraildə, bir sıra qabaqcıl Avropa ölkələrində aqrar sahədə əldə olunan uğurları diqqətlə izləyir və təcrübə mübadiləsi aparırıq.

Lakin xarici təcrübəni korkoranə tətbiq etməyə də ehtiyac yoxdur. 1970-ci illər və 1980-ci illərin əvvəllərində ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə kənd təsərrüfatının bir çox sahələrində parlaq uğurlar əldə olunurdu.

Yuxarıda adını çəkdiyimiz Hindarx qəsəbəsində respublikada ən böyük pambıqçılıq təsərrüfatlarından biri sayılan “Tacikistan” kolxozu fəaliyyət göstərirdi. Mən Ağcabədi Rayon Komsomol Komitəsinin birinci katibi kimi həmin təsərrüfatın fəaliyyəti ilə yaxından tanış idim. Elə illər olurdu ki, kolxoz ildə 10 min tondan çox pambıq istehsal edirdi və hər hektardan məhsuldarlıq 40 sentnerdən də çox olurdu.

Bu gün də bizim pambıqçılıqla məşğul olan xeyli təcrübəli fermerlərimiz var. Sabirabad rayonunda Sosialist Əməyi Qəhrəmanı, 1-ci dərəcəli Əmək ordenli Fatma Hüseynovanın başçılıq etdiyi fermer təsərrüfatı hər il yüksək göstəricilər əldə edir. Ağcabədi rayonunda Sosialist Əməyi Qəhrəmanı Suqra Mədətova, Əmək ordenli Tofiq İsmayılov kimi pambıqçılar uğurla fəaliyyət göstərir. Digər regionlarda da pambıqçılığın sirlərini bilən insanlar çoxdur. Onların iş üslubunu, təcrübəsini mütləq təbliğ etmək vacibdir. Bu istiqamətdə siz jurnalistlər də çox iş görə bilərsiniz.

***– Bu yerdə ölkəmizdə aqrar sahədə konkret nəticələr barədə danışmaq yerinə düşərdi. Ötən il kənd təsərrüfatının, demək olar ki, bütün sahələrində yaxşı göstəricilər əldə olunub. Bu il yüksək inkişaf tempini saxlamaq mümkün olacaqmı?***

– Keçən il Azərbaycanda taxıl, qarğıdalı, günəbaxan, pambıq, şəkər çuğunduru və başqa kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində xeyli artım olub. Pambıqçılıqda qazanılan nəticələr daha uğurludur. Bu fakta fikir verin, əvvəlki ilə nisbətən pambıq əkin sahəsinin 32 min hektar azaldılmasına baxmayaraq, məhsul istehsalı 61,7 min ton artırılmış, hər hektardan 29,5 sentner (hər hektardan 12 sentner çox), ümumilikdə 295,3 min ton məhsul yığılmışdır.

Pambıqçılıq strateji və ölkəyə valyuta gətirən bir sahəyə çevrilmişdir. Aqrar sektorun digər sahələrində, xüsusilə fındıqçılıq, meyvəçilik, tütünçülük və sair sahələrdə istehsal və ixrac imkanları genişlənmişdir.

Son 17 ildə Azərbaycanın kənd təsərrüfatı iki dəfə artmışdır. Şübhə etmirəm ki, aqrar sektorun inkişafı qarşıdakı illərdə daha da sürətlənəcək.

Qeyd etmək lazımdır ki, son illər ölkəmizdə kənd təsərrüfatının inkişafında əldə olunan ciddi uğurlar Azərbaycan kəndinin simasını dəyişib. Mən bu il fevralın 9-da keçirilən parlament seçkilərində 82 saylı Ağcabədi seçki dairəsindən Milli Məclisə növbəti dəfə deputat seçilmişəm. Bilirsinizmi, Ağcabədidə, bütövlükdə ölkəmizin hər bir bölgəsində son illər nə qədər heyrətamiz inkişaf, tərəqqi var. Hər bir rayonda, ən ucqar kəndlərdə belə bir-birindən rahat yollar çəkilib, məktəblər, bağçalar inşa edilib. Əlbəttə, bütün bunlarla fəxr etməyə, qürur duymağa dəyər!

***– Tahir müəllim, sonda aqrar sektorun uğur düsturunu qısa, lakonik hansı konkret məfhum, yaxud sözlərlə ifadə edərdiniz?***

– Azərbaycanda aqrar sektorun uğuru dövlətin real dəstəyindən, işlək qanunlardan və torpağa, əməyə, zəhmətə bağlı səriştəli insanlarından asılıdır. Hər üç amil ölkəmizdə bu gün tam şəkildə mövcuddur. Vaxt itirmədən bütün qüvvə və bacarığımızı bu istiqamətdə səfərbər etməliyik.

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***